**ASIF QOCAYEV**
*asif_qocayev@yahoo.com*
***Qafqaz Universiteti Hüquq Fakültəsi Bakı/Azərbaycan***

# GÜRCÜSTAN AZƏRBAYCANLILARININ İCTİMAİ-SİYASİ TƏŞKİLATLANMA SƏVİYYƏSİ

**Xülasə**

Adı çəkilən məqalə Gürcüstanda yaşayan azərbaycanlıların müstəqillikdən sonrakı dövrdə ictimai-siyasi təşkilatlanma səviyyəsini öyrənir. Tədqiqatın nəticələrinə görə belə qənaətə gəlmək olar ki, Gücrüstanda yaşayan azərbaycanlıları təmsil edən bir çox təşkilat və cəmiyyətlər fəaliyyət göstərsə də bu qurumlar arasında vahid əlaqələndirici bir təşkilatın mövcud olmaması onların cəmiyyətdə effektiv çalışmasına və azərbaycanlıların bu təşkilatlarda iştirakına mənfi təsir göstərir. Bundan başqa bəzi təşkilatlar arasında bir-birilərinə qarşı müxalif mövqenin mövcud olması müəyyən fərdlərin maraqlarının xalqın mənafeyindən daha üstün olması fikrini formalaşdırır. Nəticədə isə azərbaycanlılar sayca ikinci xalq olsalar da cəmiyyətin ictimai-siyasi həyatında tam təmsil oluna bilmir və bir çox problemlərlə üzləşməli olurlar.

Açar sözlər: ictimai-siyasi təşkilatlanma, ictimai cəmiyyətlər, milli azlıq

Hər bir ölkədə demokratik dəyərlərin qorunması və inkişafını şərtləndirən əsas amillərdən biri milli azlıqların dövlətin ictimai-siyasi həyatında effektiv iştirakıdır. Dünya təcrübəsi göstərir ki, bu cür iştirakı stimullaşdırmaq üçün həmin milli və etnik azlıqların maraqlarını təmin edən xüsusi mexanizmin qurulması lazım gəlir. Gürcüstanda yaşayan azərbaycanlılar ölkənin milli azlıqları arasında kəmiyyətcə çoxluq təşkil etsələr də, təşkilatlanma səviyyəsi və fəaliyyətlərinin effektivliyinə görə digər azlıqlardan geridə qalırlar. Rəsmi məlumatlara görə Gürcüstanda 285 min, qeyri-rəsmi rəqəmlərə görə isə 500 minə yaxın azərbaycanlı yaşayır. Amma bir faktı da nəzərə almaq lazımdır ki, qeyri-rəsmi məlumatda göstərilən rəqəm təkcə hal-hazırda bu ölkədə yaşayan soydaşlarımızı deyil, həm də müxtəlif vaxtlarda digər ölkələrə köçüb getmiş Azərbaycan mənşəli Gürcüstan vətəndaşlarını da əhatə edir. Azərbaycanlıların Borçalıda (Kvemo Kartli) kompakt şəkildə məşkunlaşması dövlət siyasətinin onlara qarşı müsbət istiqamətdə formalaşmasına təsir edən mühüm amil olsa da, təəssüflər olsun ki, indiyə kimi soydaşlarımız vahid bir təşkilatda kütləvi şəkildə birləşib, real siyasi güc formalaşdıra bilməmişlər. Gürcüstan müstəqillik qazandıqdan sonra ötən 18 ildə azərbaycanlıların bu regionda və ümumiyyətlə milli və etnik azlıqlara aid qanunvericilikdə yer tutan məsələlərə təsir edə biləcək sözə malik deyillər. Belə vəziyyətin də başlıca səbəbi odur ki, soydaşlarımız indiyə kimi bütün azərbaycanlıların maraqlarını müdafiə və təmsil edəcək vahid bir qurumun yaradılmasına nail ola bilməmişlər.

Gürcüstan Respublikası Konstitusiyasının 19-cu maddəsinin 2-ci bəndində ölkə vətəndaşlarının söz, fikir, dini etiqad azadlığına sahib olduğu və buna görə təqib olunmanın yolverilməz olmas təsbit olunur. Konstitusiyanın 26-cı maddəsinin 2 və 3-cü bəndində bildirilir: "Gürcüstan vətəndaşlarının qanunvericiliyin əsasında siyasi partiya və ya başqa siyasi təşkilat və cəmiyyətlər qurma haqqı var. Gürcüstanın konstitusyon quruluşunun zorla dəyişilməsinə yönələn, dini, milli və lokal şəkildə ədavət salan və Gürcüstanın müstəqilliyi və ərazi bütövlüyünü təhlükə altına alan siyasi və ictimai quruluşların formalaşdırılması və fəaliyyəti yol verilməzdir"(1).

Gürcüstan qanunverciliyinə görə bu ölkədə yaşayan milli və etnik azlıqların siyasi partiya qurmaq haqqı olsa da, bu partiyaların milli və dini ədavətə səbəb ola biləcəyi əsas gətirilərək bu cür partiyaların qeydiyyatı Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilmir. Bu səbəbdən də, digər milli azlıqlar kimi azərbaycanlılar da əsasən ictimai və qeyri-hökumət təşkilatları təsis etməklə öz vətəndaş hüquq və azadlıqlarını müdafiə etməyə çalışırlar. Gürcüstanda yaşayan azərbaycanlılar mərkəzləşmiş şəkildə təşkilatlandıqları təqdirdə cəmiyyətdə öz sözlərini demə gücünə malik olacaq və qanunvericilikdə iştirakçı roluna keçmiş olacaqlar. Lakin Gürcüstan azərbaycanlılarının qeyri-hökumət təşkilatları arasında əlaqələr çox zəifdir. Vacib məsələlərin həllində, problemləri ölkə və ya dünya səviyyəsinə qaldırmaq üçün ayrı-ayrı təşkilatlar öz imkanlarını səfərbər etmək əvəzinə, çox vaxt bir-birinə zidd mövqelərdən çıxış edirlər. Bu da öz növbəsində onların ortaq şəkildə çalışmamasına və hər birinin öz maraqlarına və hədəflərinə uyğun şəkildə işlədiklərinə dəlalət edir. Bu təşkilatlar arasında əlaqələndirmə mərkəzinin olmaması azərbaycanlılarla bağlı bəzi vacib məsələlərdə vahid mövqenin nümayiş etdirilməsinə mane olur. Təsis olunduqları dövrdən bu vaxta qədər Gürcüstan azərbaycanlılarının ümümrespublika qurultayının çağırılması təşəbbüsü irəli sürülsə də, Gürcüstanın ayrı-ayrı bölgələrində fəaliyyət göstərən ictimai təşkilatlar arasında bu məsələdə hələ də yekdil fikir əldə olunmayıb.

2006-cı il iyun ayında siyasi mühacirətdə olan Gürcüstan azərbaycanlılarından Daşqın Gülməmmədovun dəstəyi ilə Türkiyənin Ərzurum şəhərində Gürcüstan müsəlmanları təmsilçilərinin Forumu çağırldı və Gürcüstan Azərbaycanlılarının Milli Assambleyasının rəhbərliyi ilə Gürcüstan Müsəlman Demokratik Partiyasının(GMDP) təsis edilməsinə qərar verildi. Partiyanın qurulmasında əsas məqsəd təkcə azərbaycanlıları deyil, Gürcüstanda yaşayan digər milli azlıqların maraqlarını təmsil edəcək bir siyasi qurumu formalaşdırmaq, parlamentdə vahid güc kimi təmsil olunmaqla qanunvericilik fəaliyyətində iştirak etmək, milli və etnik azlıqların Gürcüstanın ayılmaz bir parçası olduğunu təmin etmək idi. Lakin Gürcüstan Respublikası Ədliyyə Nazirliyi bu partiyanın rəsmi olaraq qeydiyyatdan keçməsinə icazə vermədi. Gürcüstan qanunverciliyinə görə dini ad daşıyan partiyaların qeydiyatına icazə verilmədiyi üçün bu partiyanın fəaliyyəti 2008-ci ildə dayandırıldı(4). Burada bir faktı da qeyd etmək lazımdır ki, hal-hazırda Gürcüstan Parlamentində dini ad daşıyan Xristian Demokratlar Partiyası millət vəkilləri ilə təmsil olunurlar.

2008-ci ilin yanvar ayında Gürcüstanda prezidentliyə namizədliyini irəli sürmüş ilk azərbaycanlı siyasətçi-Fazil Əliyevlə birgə, ləğv olunmuş Gürcüstan Müsəlman Demokratik Partiyasının təşəbbüskarı Daşqın Gülməmmədov yeni siyasi partiya-"Gürcüstan Naminə" partiyasını qurmağa qərar verdilər. Partiyanın 13 nəfərdən ibarət Baş Komitəsi və 5 nəfərdən ibarət Mərkəzi Təftiş komissiyası formalaşdırıldı və partiyanın rəsmi olaraq qeydiyyatdan keçməsi üçün sənədlərin Ədliyyə Nazirliyinə verilməsinə qərar verildi(4/5/9). Lakin bu iki qrup arasında meydana çıxan ziddiyət səbəbindən bu partiyanın fəaliyyəti cəmi 3 ay sonra dayandırıldı.

Gürcüstan Parlamentində azərbaycanlılar hal-hazırda cəmi 3 millət vəkili ilə təmsil olunur və onlar da hakim partiyadan Azər Süleymanov majoritar (Marneuli rayonu), İsfahan Şamilov və Ramin Bayramov proporsional yolla seçilmiş millət vəkilləridir (8). Əgər hakim partiyadan seçilmiş millət vəkillərindən bir neçəsinin yeni vəzifəyə təyin olunması həyata keçirilərsə bu rəqəmin 4-ə qədər yüksələcəyi gözlənilir. Belə ki, hakim partiya Vahid Milli Hərəkat partiyasının proporsional siyahısında bir neçə azərbaycanlı namizədin də adı yer almaqdadır. Amma onlar siyahıda son sıralarda yer aldığı üçün seçkilər zamanı millət vəkilliyinə seçilə bilməmişdilər(4). Hal-hazırda parlamentdə təmsil olunan azərbaycanlı millət vəkilləri xüsusilə Ramin Bayramov və Azər Süleymanov Marneuli, Bolnisi, Dmanisi, Qardabani rayonunda kompakt şəkildə məskunlaşmış azərbaycanlıların problemlərinin həlli üçün

aktiv şəkildə çalışsa da, bu bütün azərbaycanlıları əhatə etmir və bəzi məsələlərdə effektivlik nəzərə çarpmır. Bundan başqa azərbaycanlıların məskunlaşdığı bəzi kəndlər gürcülərin sıx məskunlaşdığı Qori(Tedotsminda, Levitana kəndləri), Telavi(Qaraçalar, Şida Kartli), Mstxeta(Cömbərli-Karahasanlı, Ağarak, Daha və s.), Laqodexi(Qabal, Uzuntala, Qaraçalar), Sakareço(Ləmbəli, Keşəli, İor-muğanlı, Düzəyrəm və s.) rayonlarında olduğu üçün onların bir çox probemləri həll olunmamış qalır.

Son dövrlərdə Gürcüstan azərbaycanlılarını təmsil edən bir neçə qeyri-hökumət təşkilatı və cəmiyyətləri nəzərə çarpan dərəcdə aktiv fəaliyyət göstərirlər. Bu sırada, ilk növbədə, "Qeyrət" Xalq Hərəkatının adını çəkmək lazımdır. "Qeyrət" Xalq Hərəkatının yaranması 1990-cı il dekabrın 8-də Marneulidə keçirilən respublika təsis konfransında elan olunmuşdur. Konfransda Marneuli, Bolnisi, Dmanisi, Qardabani, Saqareço, Kaspi bölgələrindən, Tbilisidən nümayəndələr iştirak etmişlər. "Qeyrət" Hərəkatının proqramı, nizamnaməsi qəbul olunmuş, onun strukturu təsdiq edilmiş, redaksiya heyətinin, müvafiq komissiyaların, Ağsaqqallar Şürasının üzvləri seçilmişlər( 3).

Konfrans iştirakçıları Gürcüstan Ali Sovetinə və Milli Konqresə, respublikada yaşayan bütün azərbaycanlılara, Azərbaycan ictimaiyyətinə müraciətlər qəbul etmişlər. 1990-cı ildən fəaliyyətə başlayan "Qeyrət" Xalq Hərəkatı yalnız 1993-cü il yanvarın 15-də Gürcüstan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən rəsmi qeydiyyatdan keçmişdir. Təşkilatın sədri Əlibala Əsgərovdur (**3**).

"Qeyrət" Xalq Hərəkatı Gürcüstanda yaşayan azərbaycanlıların Gürcüstan Respublikasının mövcud konstitusiyası çərçivəsində adi insani və vətəndaşlıq hüquqlarının müdafiəsi uğrunda fəaliyyət göstərir. "Qeyrət" Hərəkatı Gürcüstanda yaşayan təxminən 500 minə yaxın azərbaycanlı əhalinin iqtisadi, siyasi, mədəni inkişafının ən aktual problemlərinin həlli sahəsində müntəzəm iş aparır, Gürcüstandakı həmvətənlərimizin hüquqlarının tapdanmasına qarşı qətiyyətlə çıxış edir. Bu işdə xüsusilə Gürcüstan Parlamentində 1999-2004-cü illərdə millət vəkili olmuş Hərəkatın İdarə Heyətinin üzvü və sədr müavini Zümrüd Qurbanovun və sədri Əlibala Əsgərovun fəaliyyəti xüsusilə nəzərə çarpandır.

1992-ci ilin oktyabrında "Yurddaş" Cəmiyyəti və "Qeyrət" Xalq hərəkatının birgə qəbul etdiyi bəyanatda Gürcüstan Respublikasında yaranmış sosial-iqtisadi vəziyyətin hazırkı durumunda Azərbaycan hökumət orqanlarından, ictimai təşkilatlardan, ayrı-ayrı siyasi qurumlardan və eləcə də kütləvi informasiya vasitələrindən öz fəaliyyətlərində son dərəcə dəqiq, obyektiv olmaları tələb olunurdu(3).

"Qeyrət" Xalq hərəkatının üzvləri mövcud iqtidara qarşı daha sərt mövqedə durur və kütləvi informasiya vasitələrində azərbaycanlıların problemlərini daha açıq qabardaraq, bu bölgəyə diqqətin cəlb olunmasına çalışırlar. Gürcüstanda yaşayan azərbaycanlıların təhsil, mədəniyyət, təsərrüfat, milli münasibətlər, dini etiqad azadlıqları sahəsində meydana gələn problemlərinin cəmiyyətə, beynəlxalq hüquq müdafiə təşkilatlarına çatdırılmasında bu təşkilatın üzvləri yaxından iştirak etmişlər. Hərəkat üzvləri Azərbaycan dilinin qorunub saxlanması, Gürcüstanda mövcud olan Azərbaycan dilli məktəblərin bağlanmamasının qarşısının alınması və sayının daha da artırılması üçün bir neçə dəfə xarici dövlət və təşkilat nümayəndələrinə müraciət ünvanlamışlar. Bundan başqa Hərəkatın özünün "Qeyrət" adlı qəzeti də nəşr olunur ki, burda da həmin problemlərin işıqlandırılmasına xüsusi yer verilir. Lakin bir məqamı qeyd etmək lazımdır ki, bir vaxtlar azərbaycanlılar arasında ən güclü nüfuza malik olan "Qeyrət" Hərəkatı üzvlərindən heç birinin son Parlament seçkisində iştirak etməməsi təşkilatın rolunun və mövqeyinin  azərbaycanlılar arasında müəyyən qədər zəifləməsi və onların siyasi passivliyi ilə əlaqələndirilə bilər.

Öz siyasi fəallığı və hazırki hakimiyyətə qarşı yürütdüyü siyasəti ilə seçilən Gürcüstan Azərbaycanlılarının Milli Assambleyası(GAMA) 2001-ci ilin dekabrında təsis olunub. 9 de-

kabr 2001-ci ildə Eduard Şverdnadzenin başçılıq etdiyi Gürcüstan Vətəndaş Birliyi partiyasının keçmiş üzvü, azərbaycanlı siyasətçi Daşqın Gülməmmədovun təşəbbüsü ilə Gürcüstan azərbaycanlılarının (türklərin) Milli xartiyası imzalandı və ertəsi gün – dekabrın 10-da GAMA təsis olundu(10). 2002-ci il 29 mayda D. Gülməmmədov GAMA-nın Müvəqqəti Ali Komitəsinin sədri seçildi və 2002-ci il 24 noyabrda GAMA-nın ilk Konqresində o, təşkilatın ilk prezidenti seçildi(10). Təsis olunduğu ilk illərdə təşkilat Gürcüstan azərbaycanlılarının hüquqlarının qorunması və cəmiyyətə inteqrasiyasında fəallıq göstərməyə çalışırdı. 2003-cü ildə Gürcüstanda "Narıncı inqilab" qələbə çaldıqdan sonra hakimiyyətə gəlmiş Mixail Saakaşvilini GAMA şovinizm və avtoritarizmdə ittiham etdi. Ölkədəki siyasi təqiblərə görə təşkilatın sədri D. Gülməmmədov 2005-ci ildə Gürcüstanı tərk etməli olur və Bakı, Kiyev, Trabzonda təşkilatın müvəqqəti offisləri fəaliyyət göstərməyə başlayır. 2006-cı ildə təşkilat Gürcüstan prezidenti Mixail Saakaşvilini tənqid edən "Hümmət"qəzetini nəşr edib, Gürcüstanda yaşayan azərbaycanlılar arasında gizli şəkildə yayır. Daha sonra isə "Azərbaycan Yolu" və "Yeni düşüncə-Azərbaycan" adlı qəzetlər nəşr etməyə başlayır(10). 2007-ci ilin sentyabr ayında Assambleyanın Ali Məclisnin Gəncədə keçirilən iclasında Azərbaycan dilinə dövlət dili statusunun verilməsi və onun Gürcüstanın rəsmi dillərdən biri kimi qəbul olunması haqqında qətnamə qəbul olunur. Gürcüstanda təsis olunmağa çalışılan iki siyasi partiya- Gürcüstan Müsəlman Demokrat Partiyası və Gürcüstan Naminə partiyası bu təşkilat üzvlərinin fəaliyyəti ilə əlaqədardır. İndiki dövrdə də təşkilat üzvləri hakim partiyaya qarşı müxalif mövqedə qalmaqda davam edir.

Son bir neçə ildə fəaliyyətə başlamış və daha əvvəl təsis olunan təşkilat və cəmiyyətlərlə müqayisədə daha effektiv fəaliyyət göstərən cəmiyyətlərdən biri olan Azərbaycanlıların Mədəniyyət Mərkəzinin əsası 2004-cü ildə qoyulub(2/9). Bu Mərkəzin qurulmasının əsasə təşəbbüskarı və hal-hazırda Mərkəzin İdarə heyyətinin sədri Fazil Həsənovdur. Mərkəzin əsas məqsədi Gürcüstanda yaşayan azərbaycanlıların cəmiyyətə inteqrasiyasını sürətləndirmək, yeni ziyalı təbəqəsi yetişdirmək, gənc nəslin təhsilə, xüsusilə də gürcü dilinə marağını artırmaq, onların Azərbaycanın mədəniyyəti, tarixi keçmişini öyrənməsinə çalışmaq və azərbaycanlıların cəmiyyətin ictimai-siyasi həyatında akiv iştirakına münbit şərait yaratmaqdan ibarətdir. Prezident İlham Əliyevin 2004-cü ildə Gürcüstana səfəri zamanı Gürcüstan azərbaycanlıları mədəniyyət mərkəzinin qurulması barəsində prezidentə müraciət etmiş və o, bu işdə lazımi dəstək göstəriləcəyini ifadə etmişdir(4/5/8). Mərkəz əsasən Gürcüstanda yaşayan azərbaycanlıların təhsil və icitimai həyatı ilə bağlı müxtəlif tədbirlər həyata keçirir. Qurulduğu vatxdan indiyə qədər AMM Gürcüstanın ali məktəblərində təhsil alan tələbələrin problemləri ilə yaxından maraqlanır və onlar üçün lazımi şəraitin təmin olunmasına çalışır və gənc nəslin ali təhsil ocaqlarında təhsil almağa təşviq edir. Belə ki, 2007-2008 tədris ilində Mərkəz 50 Azərbaycan dilli orta məktəbdə 10 aylıq intensiv gürcü dili kursu təşkil etdi. 2009-2010-cu tədris ilində 80 məktəbdə bu cür kursların təşkil olunması həyata keçirilir(6). Ali məktəblərdə təhsil alan azərbaycanlı tələbələrə maddi dəstək vermək üçün Mərkəz Azərbaycan hökumətinə və bir neçə şirkətə müraciət etmişdir. 2008-ci ildən Azərbaycan Neft Şirkəti 55, Gilan Holdinq 100 və Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi 45 tələbəyə təqaüd verməyə başlamışdır(2). Mərkəzin "Region" adlı qəzeti və "Meydan" jurnalı nəşr olunur və burada əsasən ölkənin və dünyanın ictimai həyatında baş verən hadisələr işıqlandırılır.

Gürcüstanda Milli azlıqların hüquq və azadlıqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən və son dövrlər daha çox nəzərə çarpan təşkilatlardan biri "Tolerans" İnsan Hüquqlarının Müdafisəi İctimai birliyidir. Bu təşkilat 2004-cü il 16 noyabrda təsis olunmuşdur(7). Bu qeyri hökumət təşkilatının qurulmasında əsas məqsəd Gürcüstanda tolerantlı vətəndaş cəmiyyətinin inkişafına dəstək və insan hüquq və azadlıqlarının müdafiəsi üçün bu sahədə

insanları maarifləndirməkdir. Təşkilatın hal-hazırki sədri Elbrus Məmmədovdur. O eyni zamanda Gürcüstan İnsan haqqları müvəkkilinin(ombudsmanı) Kvemo-Kartli(Borçalı) bölgəsi üzrə nümayəndəsidir(2). Təşkilat azərbaycanlıların söz, fikir, etiqad azadlığı, ictimai-siyasi, təsərrüfat, torpaq bölgüsü kimi problemləri ilə bağlı müxtəlif tədbirlər keçirir, bu məsələlərlə bağlı Gürcüstan Respublikası prezidentinə, nazirliklərə və beynəlxalq təşkilatlara müraciət ünvanlayır və Çərçivə Konvensiyasında öz əksini tapan milli azlıqların hüquq və azadlıqlarının müdafiəsi və təmin olunması kimi məsələlərin həllində əsas vasitəçi rolunu oynamağa çalışır.

Bundan başqa Borçalı Cəmiyyəti(sədri-Zəlimxan Məmmədli), Gürcüstan Azərbaycanlılarının Konqresi (təsisçi- Bəxtiyar Zeynalov, Kamil Əliyev və Səbinə Talıbova), UNİON gənclər təşkilatı (sədri-Elmir Yusibov), Kvemo Kartli Vətəndaş Cəmiyyətinin İnkişafı İnstitutu (sədri-Əli Məmmədov), "Gürcüstan Bizim Vətənimizdir" (sədri- Əli Babayev), Ozan Cəmiyyəti (sədri-Kamil Musayev-Kirəcli) kimi təşkilatlar və cəmiyyətlər fəaliyyət göstərməkdədir. Ümumi sayı 40-a yaxın olan təşkilatlardan ancaq 10-u aktiv şəkildə çalışmaqdadır(2).

Bu ictimai təşkilatların və cəmiyyətlərin fəaliyyətini nəzərdən keçirdikdən sonra belə bir qənaətə gəlmək olar ki, son illər Gürcüstanda yaşayan azərbaycanlılar arasında ictimai-siyasi təşkilatlanmada müəyyən irəliləyişlər nəzərə çarpsa da, bu təşkilatların cəmiyyətdə vahid mövqe nümayiş etdirməməsi, azərbaycanlıları bir mərkəzdə birləşdirə bilməməsi və hələ də fərdi maraqların daha üstün olması azərbaycanlıların cəmiyyətdə öz sözlərini təsirli ifadə edə bilməməsinə səbəb olur. Bu da öz növbəsində xalqın bu təşkilatlara etimadını zəiflədir. Gücüstanda yaşayan azərbaycanlılar cəmiyyətə inteqrasiya olmamışdan öncə öz aralarında ortaq məxrəcə gəlməli və toparlanmış şəkildə vətəndaş cəmiyyətinin formalaşmasında iştirak etməlidir. Əks halda bu proses onların cəmiyyətdən təcrid olması ilə nəticələnə bilər ki, bu da azərbaycanlıların kompakt yaşadıqları yerlərdə özünü xüsusilə büruzə verir və bunun də mənfi nəticələrini yaşamaqdadırlar.

### *ƏDƏBIYYAT*

1.The Constitution of Georgia, adopted 1995, last amendment 2006.
2.Marneulidə aparılmış etnososioloji tədqiqatın audio materialları.
3.Xarici ölkələrdə fəaliyyət göstərən azərbaycan mədəniyyət mərkəzləri və cəmiyyətləri. B.:Qorqud, 1994, 110 s.
4.www.apa.az
5.www.day.az
6.www.diaspora.az
7.www.mrmg.ge
8.www.parliament.ge
9.www.trend.az
10.www.wikipedia.ru

**АСИФ ГОДЖАЕВ**
*asif qocayev@yahoo.com*
***Кафказский Университет Юридический факультет Баку/Азербайджан***

## УРОВЕН ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКОЙ ОРГАНИЗОВОННОСТИ АЗЕРБАЙДЖАНЦЕВ ГРУЗИИ

В данной статье проводится исследование об уровне социально-политической организации Азербайджанцев, проживающих в Грузии, после обретения ей независимости. По итогам исследования можно придти к такому выводу, несмотря на то, что в Грузии функциони-

руют многочисленные организации и общества азербайджанцев, среди этих институтов отсутствует единый координационный центр, что негативно влияет на эффекивность деятельности и участия в этих организациях азербайджанцев Грузии. Помимо этого негативное отношение некоторых организаций друг к другу, формирует мнение о превосходстве личных интересов над общественными. В итоге, несмотря на то, что азербайджанцы являются вторым по количеству народом Грузии, они не могут в полной мере участвовать в социально-политической жизни страны, что приводит ко множеству проблем.

**ASIF QOCAYEV**
*asif qocayev@yahoo.com*
***Qafqaz University Faculty of Law Baku/Azerbaijan***

## LEVEL OF SOCIO-POLITICAL ORGANIZATION OF AZERBAIJANIS IN GEORGIA

Abovementioned article deals with the level of socio-political organization of Azerbaijanis in Georgia after getting independence. According to the results of research it can be summarized that even though there are several organizations and societies representing Azerbaijanis in the community, the lack of unified establishment covering all these organizations negatively affects the participation of Azerbaijanis in them and functioning of these institutions efficiently. Moreover, contradictions among some organizations show that interests of individuals are superior to interests of people. As a result, Azerbaijanis aren't able to be represented fully in socio-political life of society and they experience dozens of difficulties.

Key words: socio-political organization, public societies, national minority.

***Rəyçilər: t.e.d.A.Babayev, t.e.d.L.L.Həsənova.***

***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu Etnososioloji tədqiqatlar şöbəsinin 22 yanvar 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №01).***